*"Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır".*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 24 sentyabr 2014-cü il | № 73 (1890) | Qiyməti 25 qəpik


## Rəsmi xronika

✓ *Sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ticarət və investisiyalar üzrə dövlət naziri Lord Livinqstonu qəbul edib.*

*Görüşdə Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğu bildirildi, dinamik inkişaf edən əməkdaşlığımızın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

*Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları, qeyri-neft sektoru, kənd təsərrüfatı, səhiyyə, təhsil sahələrinin inkişafına, infrastruktur layihələrinin həyata keçirilməsinə xüsusi diqqət yetirildiyi bildirildi.*

* * *

✓ *Sentyabrın 20-də Bakıda, Heydər Əliyev Mərkəzində "Əsrin müqaviləsi"nin 20 illiyinə və "Cənub" qaz dəhlizinin təməlinin qoyulmasına həsr olunmuş təntənəli mərasim keçirilib.*

*Mərasimdən əvvəl Prezident İlham Əliyev, dövlət və hökumət başçıları, digər qonaqlar birgə foto çəkdirdilər.*

*Dövlətimizin başçısı mərasimdə çıxış etdi.*

*Sonra dövlət və hökumət başçıları, digər rəsmi şəxslər "Cənub" qaz dəhlizinin təməlinin qoyulması mərasimində iştirak etmək üçün Səngəçal terminalına yollandılar.*

*Azərbaycan Prezidenti İlham Əliyev və təməlqoyma mərasiminin digər iştirakçıları rəmzi olaraq xüsusi qəliblərin üzərində əl izlərini qoydular.*

*Sonra Azərbaycan Prezidenti İlham Əliyev, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Türkiyənin energetika və təbii sərvətlər naziri Taner Yıldız, Yunanıstanın Baş naziri Antonis Samaras, Bolqarıstan Prezidenti Rosen Plevneliev, Albaniyanın energetika naziri Damian Giknuri, İtaliyanın iqtisadi inkişaf nazirinin müavini Klaudio de Vinsenti, Monteneqronun Baş naziri Milo Cukanoviç, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ticarət və investisiyalar naziri Lord Livinqston, ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi nümayəndəsi Amos Hokstayn, bp şirkətinin baş icraçı direktoru Robert Dadli, Azərbaycanın energetika naziri Natiq Əliyev və ARDNŞ-in prezidenti Rövnəq Abdullayev "Cənub" qaz dəhlizinin təməlinə qoyulacaq ilk borunu imzaladılar.*

* * *

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi nümayəndəsi Amos Hokstaynın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

*Dövlətimizin başçısı Azərbaycan ilə ABŞ arasında energetika sahəsində uzun illər səmərəli əməkdaşlıqdan məmnunluğunu bildirdi, ölkəmizin təşəbbüsü ilə həyata keçirilən layihələrə Birləşmiş Ştatlar hökumətinin verdiyi dəstəyin önəmini qeyd etdi.*

*"Cənub" qaz dəhlizi layihəsinin böyük regional əhəmiyyət daşıdığını vurğulayan Amos Hokstayn layihənin təməlqoyma mərasimi münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli əlaqələrin hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**AzərTAc-ın materialları əsasında**

*Ön xətdən reportaj*

# Hər bir döyüşçümüz düşmənə qarşı sipərdir

**General-polkovnik Zakir HƏSƏNOV:**

"Azərbaycan əsgəri cəmiyyətimizdə ən uca hörmətə layiqdir. Çünki ona müqəddəs vəzifə - torpaqlarımızın işğaldan azad edilməsi vəzifəsi tapşırılıb".



***Səfərim Haramı düzünədir. Həmişə deyirlər ki, bu bölgənin nə yağmurlu gününü görəsən, nə də qızmar yayını. Doğrudan da, beləymiş. İnanın, bu yayın istisində sərinləməyə bir addım yer tara bilmirsən. Elə bil hər yan od tutub yanır. Torpaq yolda toz duman kimi ərşə dirənir. Və belə çətin şəraitə baxmayaraq, səngərlərdə Vətənimizi ayıq-sayıqlıqla qoruyan igidlərimizin cəsarətinə afərin deyirsən...***

***Qərargahda zabit Xalid Məmmədovla söhbətimizdə məni maraqlandıran məsələ də qızmar yay şəraitində əsgərlərimizin vəziyyəti idi.***

- Bu yerlərin sərt dəyişkən iqlimi var, - deyir komandir. - Qışda soyuqdan, yayda isə kəskin istilərdən, quraqlıqdan əziyyət çəkməli olursan. Buna görə də əsgərlərin məişət şəraiti üçün zəruri tədbirlər görülür. Təkcə bir məsələni qeyd edim ki, kəskin istilərlə müqayisədə şəxsi heyətdə günvurma faktına rast gəlinməyib. Şübhəsiz, son vaxtlar Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən əsgərlərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına göstərilən diqqət və qayğı öz səmərəsini verir. İdarə heyətinin zabitləri gecə-gündüz əsgərlərin yanındadır. Çalışırıq ki, gənc döyüşçülərimiz daim yüksək əhval-ruhiyyədə və xoş ovqatda olsunlar.

Bir azdan təcrübəli zabitlər Rasim Manafov və Anar Binyətəliyevlə birgə ön xəttə yola düşürük. Düşmənlə təmas xəttinə gedən yol uzunu toz sanki duman şəklində bizi müşayiət edir. Zabit Manafov iyulun sonu-avqustun əvvəllərində müdafiənin ön xəttində düşmənin fəallaşmasından, atəşkəsi intensiv şəkildə pozmasından söhbət açır, bildirir ki, həmin günlərdə hərbi hissəmizin şəxsi heyəti ayıq-sayıqlığını daha da artırmışdı. "Hər bir döyüşçümüz düşmənə tutarlı cavab vermək əzmində idi. Digər bölgələrdə ordumuzun erməni hərbi birləşmələrinin hücum cəhdlərinin qarşısını qətiyyətlə alması bizi ruhlandırmaya bilməzdi. Biz döyüş növbətçiliyini gücləndirməklə silahdaşlarımıza dəstək olmağa hazır idik. Yenə məğlub olacağını dərk edən düşmən geri çəkilməyə məcbur oldu. Amma hər bir şəhidə görə biz də üzüldük. Neyləmək olar, təki Vətən sağ olsun".

Zabit Tofiq Muradov son vaxtlar düşmənlə təmas xəttində elə bir ciddi hadisənin qeydə alınmadığını bildirərək deyir:

- Məlum avqust hadisələrindən üzü bəri cəbhə xəttində sakitlikdir. Qarşı tərəfin mövqelərini müşahidə etməkdə davam edirik. Hər bir döyüşçümüz yaxşı başa düşür ki, istənilən halda hiyləgər düşmənin təxribatları ilə üzləşə bilərik. Bu baxımdan əsgərlərimiz döyüş növbətçiliyində ayıq-sayıqdırlar.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan-Türkiyə münasibətlərinin inkişafı dünya dövlətləri üçün nümunədir

Sentyabrın 19-da Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlu ilə görüşüb.

Oqtay Əsədov Əhməd Davudoğlunu Türkiyənin Baş naziri vəzifəsinə seçilməsi münasibətilə təbrik edib.

Azərbaycan-Türkiyə əlaqələrinin çox qədim köklərə əsaslandığını deyən sədr qardaş ölkələrimiz arasında münasibətlərin bütün sahələrdə yüksək səviyyədə olduğunu deyib. Bildirilib ki, dünya dövlətləri üçün nümunə olan Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında dövlətlərimizin başçıları xüsusi rol oynayırlar.

Qeyd edilib ki, hər iki ölkənin qanunverici orqanları arasında da münasibətlərin səviyyəsi məmnunluq doğurur. Ölkələrimiz bütün beynəlxalq təşkilatlarda bir-birinin mövqelərini dəstəkləyir. İkitərəfli hüquqi, siyasi əlaqələrin yüksək səviyyədə olduğunu söyləyən Oqtay Əsədov bildirib ki, Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığının daha da inkişaf etdirilməsi üçün mühüm işlər görülür. Qarşıya ölkələrimiz arasında ticarət dövriyyəsinin 15 milyard dollara çatdırılması hədəfi qoyulub.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Oqtay Əsədov deyib ki, bu məsələnin həllində ölkəmiz əsas dəstəyini məhz Türkiyədən alır.

Baş nazir Əhməd Davudoğlu Azərbaycana hər səfərində ölkəmizdə gördüyü yüksək inkişafdan qürur duyduğunu deyib.

Türkiyənin Baş naziri bildirib ki, son illər dünyada baş verən böhranlar yalnız iki məsələni dəyişməyib. Birincisi, Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı dəyişməz qaldı. İkincisi, həm Azərbaycanın, həm də Türkiyənin inkişafında ləngimə baş vermədi. Ölkələrimiz sürətlə inkişaf edir.

Baş nazir kimi ilk səfərini Azərbaycana etdiyini xatırladan Əhməd Davudoğlu istənilən vəzifədə çalışmasından asılı olmayaraq, Türkiyə və Azərbaycan xalqlarına xidmət etmək arasında heç bir fərq olmadığını deyib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ölkəmizin haqlı mövqeyini həmişə dəstəklədiklərini vurğulayan Baş nazir diqqətə çatdırıb ki, bu problemin həlli, qardaş ölkənin ərazi bütövlüyünün təmin olunması Azərbaycan üçün nə qədər vacibdirsə, Türkiyə üçün də bir o qədər vacibdir.

Əhməd Davudoğlu ölkələrimizin parlamentləri arasında da əlaqələrin münasibətlərimizin inkişafında xüsusi rol oynadığını deyib.

Ümummilli lider Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" müdrik kəlamını xatırladan Baş nazir qardaş Azərbaycan ilə bütün sahələrdə əməkdaşlığın gələcəkdə də inkişaf etdiriləcəyinə əminliyini bildirib.

**AzərTAc**

## Azərbaycan nümayəndə heyəti Avronest PA-nın büro iclasının Ermənistanda keçirilməsinə etiraz edib

Bu il oktyabrın 16-da Brüsseldə Avronest Parlament Assambleyasının (PA) büro iclası keçiriləcək. İclasda digər məsələlərlə yanaşı, qurumun növbəti sessiyasının Ermənistanda keçirilməsi ilə bağlı məsələ müzakirə ediləcək.

Avronest PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Elxan Süleymanov qurumun sessiyasının Ermənistanda keçirilməsi ilə bağlı təşkilatın həmsədrlərinə və büro üzvlərinə etiraz məktubu ünvanlayıb.

Məktubda deyilir ki, Azərbaycan nümayəndə heyəti 2011-ci, 2012-ci və 2013-cü illərdə keçirilən büro iclaslarında davamlı şəkildə Avronest PA-da Ermənistanın həmsədrliyinə və təşkilatın növbəti sessiyalarının bu ölkədə keçirilməsinə qəti etirazını bildirib. Nümayəndə heyətimiz Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf 7 rayonunun əraziləri azad edilməyənədək, Sərsəng su anbarının 22 ildən artıq işğal altında qalması nəticəsində Azərbaycanın 400 min əhalisi olan cəbhəyanı rayonları üçün törətdiyi təhlükələr tam aradan qaldırılmayanadək, Naxçıvanın blokadasına son qoyulmayanadək Avronest PA-nın sessiyalarının, büro və komitə iclaslarının Ermənistanda keçirilməsinə qəti etiraz edir, həmin sessiyaların və iclasların işində iştirakdan imtina edəcəyini bir daha bildirir.

**AzərTAc**

AZƏRBAYCAN ORDUSU

# Müdafiə naziri Litva Respublikasının ölkəmizdəki səfirini qəbul edib



***20 sentyabr 2014-cü il.***

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Litva Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Valdas Lastauskası qəbul edib.

Müdafiə naziri səfirə regiondakı hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verib.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin birgə təlimləri davam edir

***20 sentyabr 2014-cü il.***

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin birgə təlimləri bu gün də davam edib.

Təlimlərdə iki ölkənin Hərbi Hava Qüvvələrinin müştərək fəaliyyətlərinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət və döyüş uzlaşması imkanları yerinə yetirilib.

Aviasiya vasitələrinin iştirakı ilə keçirilən birgə təlimlərin növbəti mərhələsi sentyabrın 22-dən başlayaraq oktyabrın 3-dək davam edəcəkdir.



Qeyd edək ki, təlimlərdə Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus 30-dan artıq aviasiya vasitələri, o cümlədən, MiQ-29, F-16 qırıcı, Su-25 hücum və C-130 Herkules hərbi-nəqliyyat təyyarələri, Mi-24, AH-1W Super Kobra döyüş və Mi-17, Sikorski UH-60 döyüş-nəqliyyat helikopterləri iştirak edirlər.

# Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin pilotları döyüş uzlaşması imkanlarını yoxlayıblar







***22 sentyabr 2014-cü il.***

Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin birgə təlimləri bu gün də davam edib.

Təlimlərdə iştirak edən Türkiyə Hərbi Hava Qüvvələrinin pilotları Azərbaycan pilotları ilə birgə ikiyerli döyüş-təlim MiQ-29 tipli qırıcı təyyarələrində ölkəmizin hava məkanındakı uçuş zonaları, ərazidəki hərbi aerodromların qalxma-enmə zolaqları, marşrut üzrə aeronaviqasiya vəziyyəti, uçuş, enmə və ehtiyat aerodromlarındakı şəraitlə tanış olmaq məqsədilə uçuşlar həyata keçiriblər.

Azərbaycan Hərbi Hava Qüvvələrinin pilotlarının ikiyerli döyüş-təlim F-16 tipli qırıcı təyyarələrində Türkiyə pilotları ilə birgə uçuşları da icra olunacaq.

Hərbi Hava Qüvvələrinin təlimləri oktyabrın 3-dək davam edəcək.

Qeyd edək ki, təlimlərdə Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus 30-dan artıq aviasiya vasitələri, o cümlədən, MiQ-29, F-16 qırıcı, Su-25 hücum və C-130 Herkules hərbi-nəqliyyat təyyarələri, Mi-24, AH-1W Super Kobra döyüş və Mi-17, Sikorski UH-60 döyüş-nəqliyyat helikopterləri iştirak edirlər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcəklər

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin nümayəndələri sentyabrın 22-dən 26-dək Tbilisi şəhərində (Gürcüstan) "Eternity - 2014" kompüter dəstəkli komanda-qərargah təlimində və sentyabrın 23-dən oktyabrın 2-dək Brunssum şəhərində (Niderland Krallığı) "Trident joust-2014" təkmilləşdirilmiş müşahidəçi proqramında iştirak edəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***20 sentyabr 2014-cü il.***

Erməni silahlı bölmələri dünən və bu gecə Füzuli rayonunun Aşağı Veysəlli, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında və Goranboy rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

***21 sentyabr 2014-cü il.***

Erməni silahlı bölmələri dünən və bu gecə Ağdam rayonunun Yusifcanlı, Tərtər rayonunun Göyarx, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında və Goranboy rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

***22 sentyabr 2014-cü il.***

Erməni silahlı bölmələri bu gecə Ağdam rayonunun Yusifcanlı kəndi yaxınlığında və Goranboy rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

***23 sentyabr 2014-cü il.***

Erməni silahlı bölmələri dünən və bu gecə Ağdam rayonunun Şuraabad, Baş Qərvənd, Goranboy rayonunun Tapqaraqoyunlu, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında və Göygöl rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

# Hər bir döyüşçümüz düşmənə qarşı sipərdir



**(Əvvəli 1-ci səhifədə)**

Hərbi xidmətini əsasən ön xətdəki bölmələrdə keçirmiş tabor komandirinin kifayət qədər hazırlıqlı hərbçilərimizdən biri olduğunu deyən zabit Rasim Manafov təcrübəli həmkarının təşkilatçılıq və liderlik qabiliyyətini xüsusi vurğulayır. "Hərbi kollektivdə zabitin liderlik xüsusiyyətlərinə malik olması həmin mühitdə sağlam əhval-ruhiyyənin yaranmasına və əsgər-komandir münasibətlərinin düzgün formalaşmasına səbəb olur. Bu amil şəxsi heyətin döyüş uğurlarının əsas özəyini təşkil edir".

Tabor komandiri ilə qısa söhbətimdə önəm verdiyim məsələlərdən biri də gənc döyüşçülərin hazırlığı idi. Zabitə görə, gənc əsgərləri döyüş növbətçiliyinə hazırlamaq ön xətdəki bölmələrdə xidmət edən komandir və zabitlərin əsas vəzifəsidir.

- Bildiyiniz kimi, müdafiənin ön xəttində hərbi xidməti həyata keçirməyin özəl çətinlikləri vardır, - deyə mayor T.Muradov bizimlə söhbətində bildirir. - Burada əsgəri borcunu yerinə yetirən gənclərimizdən yüksək ayıq-sayıqlıq tələb olunur. Taborun zabit və gizirləri gecə-gündüz döyüş növbətçiliyinin keçirilməsinə nəzarət edirlər. Çalışırıq ki, əsgərin mühüm sınaq mərhələsi olan döyüş növbətçiliyi daim uğurla həyata keçirilsin.

Zabitlə birgə səngərdə döyüş növbəsində dayanan əsgərlərimizin görüşünə tələsirəm. Həmişə bu qənaətdəyəm ki, doğrudan da, cəbhə bölgəsi Vətənimizin qorunduğu müqəddəs bir ünvandır. Şübhəsiz, bu məkanda qorxaqlara, zəiflərə yer yoxdur. Bura yalnız igidlərin, ərənlərin ünvanıdır. Tam səmimi sözümdür, bəzən valideynlər cəbhə bölgəsinin adı çəkiləndə narahatlıq keçirir. Amma narahatlığa əsas yoxdur, çünki bu gün ordu rəhbərliyinin əsas diqqəti səngərə yönəlib. Müdafiə naziri general-polkovnik Zakir Həsənov bütün tədbirlərdə birmənalı şəkildə bəyan edir ki, ön xətdə xidmət edən şəxsi heyətin qayğı və problemləri onun diqqət yetirdiyi ən mühüm məsələdir. Bu yaxınlarda Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində ordunun şəxsi heyətlə iş üzrə zabitlərinin ilk təkmilləşdirmə kursunun məzunları ilə görüşən Müdafiə naziri onlara bir vəzifə olaraq tövsiyə etdi ki, müdafiənin ön xəttində xidmət edən gənc döyüşçülərə dərindən diqqət və qayğı göstərilməlidir. Cənab nazir çıxışının bir məqamında qeyd etdi ki, əsgərlərimiz bu gün cəmiyyətimizdə ən uca hörmət və ehtirama layiqdirlər, çünki onlara Vətənimizin, torpaqlarımızın keşiyində dayanmaq vəzifəsi etibar edilib.

Budur, cəsur Vətən müdafiəçilərindən biri - baş atıcı əsgər Səxavət Yusifov səngərdə qarşımıza çıxaraq həm özünü təqdim edir, həm də son döyüş vəziyyəti barədə məruzə edir:

- Yoldaş mayor, döyüş növbətçiliyində heç bir hadisə qeydə alınmayıb.



Əsgərin məğrur görkəmi qəlbimdə tükənməz qürur doğurur. Onun hər sözündən, hər kəlməsindən səmimiyyət hiss edirəm. Tanış olmağa imkan tapıram və öyrənirəm ki, 18 ayın əsgəridir. Bəli, mənalı bir əsgər ömrünün son akkordları. Qəfildən tabor komandirinə üz tutub bir sualıma səmimi cavab verməsini xahiş edirəm:

**- Yoldaş komandir, bu əsgəri sabah da, bir aydan sonra da xatırlamalı olacaqsanmı?**

- Əlbəttə, - deyir komandir. - Belə vətənpərvər, hazırlıqlı döyüşçülərimiz çoxdur. Aradan neçə vaxt ötməsinə baxmayaraq, bacarıqlı əsgərlərimi xoş hisslərlə xatırlayıram. Səxavət Yusifov da onların biri olacaq. Yoldaş müxbir, 3 il öncə, üzr istəyirəm, toy məclisimə 40-50 nəfər əsgərim yığışmışdı. İnanın, onların heç birini dəvət etməmişdim, özləri xəbər tutub gəlmişdilər.

Əhsən, komandir, bax, elə bu deyilmi əsl zabit, komandir nümunəsi. Bir dəfə ailəmizlə birgə dənizkənarı parkda gəzəndə, bir cavan mənə yaxınlaşdı. Tanımadım, dedi ki, Arif müəllim, 2 il əvvəl Haramı düzündə, ön xətdə mən əsgər idim, siz gəlmişdiniz, bizim haqqımızda "Azərbaycan Ordusu"nda şəkillərimizlə birgə böyük bir yazı vermişdiniz. Əslində onu xatırlaya bilməsəm də, ailəmin yanında bir dünya biçimində qürur yaşadım. İndi tabor komandirinə də qibtə edirəm ki, görün, nə qədər əsgərinin yaddaşında özünə yer tutub.

Qumbaraatan İlkin Tağıyev də manqanın təcrübəli əsgərlərindən biridir. İlkin də Səxavətin haqqında xoş sözlər dedi. Dedi ki, ilk dəfə məhz onunla çiyin-çiyinə döyüş növbəsinə çıxıb. Bacarıqlı döyüşçü olmağı məhz ondan öyrənib. Şəmkir rayonundan olan bu döyüşçüyə görə, təcrübəli əsgər dostundan ayrılmaq ona çətin olacaq, çünki aylarla, həftələrlə bir yerdə xidmət ediblər, bir-birinə qardaş, sirdaş olublar.

- Təəssüflənmə, əsgər, - deyirəm. - Vaxt gələr ki, illər uzunu bu dostluğu sədaqətlə davam etdirərsiniz. Hər dəfə bir-birinizdən hal-əhval tutanda, əsgərlik xatirələrini də bölüşərsiniz. Özü də bu dostluğun ömrü uzun olur.

**Mayor Arif PƏNAHOV, "Azərbaycan Ordusu"**

# Hərbi şəraitdə əlaqəli tibbi fəaliyyət önəmlidir

## Silahlı Qüvvələrin tibb xidmətinin və Səhiyyə Nazirliyi mütəxəssislərinin birgə hərbi tibbi təlim toplanışı

***Hərbi münaqişələr zamanı yaralıların vaxtında qəbulu, çeşidlənməsi və müalicəsindən bu insanların taleləri asılıdır. Kütləvi yaralılar qəbul edilərkən onlara yalnız hərbi tibb mütəxəssisləri deyil, eyni zamanda mülki tibb müəssisələri də tibbi xidmət göstərməli olur. Bu məsələlərin lazımi səviyyədə təşkili isə dinc dövrdə öz səmərəli həllini tapmalıdır. Bu məqsədlə "N" hərbi tibb müəssisəsində birgə hərbi tibbi təlim toplanışı keçirilib. Elmi-praktik xarakter daşıyan tədbir hərbi travmalar zamanı anestezioloji-reanimasyon və cərrahi yardımın təşkili və odlu silah yaralanmalarının müalicəvi xüsusiyyətləri mövzusuna həsr edilmişdi.***





Bu günlərdə ölkəmizin qərb bölgəsində birləşmə və hissələrin səfərbərlik tapşırıqlarının yerinə yetirilməsi səviyyəsinin yoxlanılması məqsədilə ehtiyatda olan hərbi vəzifəlilərin səfərbər olunması ilə bağlı geniş miqyaslı hərbi təlimlər keçirildi. Yuxarıda qeyd etdiyim təlim toplanışının bu təlimlərlə eyni vaxtda təşkili heç də təsadüfi deyil. Müxtəlif ixtisaslı hərbi vəzifəlilərlə bərabər Səhiyyə Nazirliyinin müalicə müəssisələrində çalışan həkimlər, cərrahlar, anestezioloqlar və cərrahi briqadaların əməliyyat tibb bacıları səfərbər ediliblər.

Təlim toplanışında Silahlı Qüvvələrin tibb xidmətinin, hərbi tibb fakültəsinin zabitləri və Səhiyyə Nazirliyinin mütəxəssisləri iştirak edirdilər. Tədbirin əvvəlində Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi, tibb xidməti general-mayoru Natiq Əliyevin toplanış iştirakçılarına müraciəti oxundu. Müraciətdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna göstərdiyi qayğının nəticəsi olaraq, Silahlı Qüvvələrdə müasir tələblərə cavab verən, yeni avadanlıqlarla təchiz edilmiş hospitallar, poliklinikalar, tibb məntəqələrinin istifadəyə verildiyi, müharibə şəraitində ixtisaslaşdırılmış cərrahi yardımın göstərilməsi üçün nəzərdə tutulmuş mobil səhra hospitallarının yaradıldığı, yaralıların təxliyyəsi üçün ən müasir sanitar helikopterlərin və reanimobillərin istifadəyə verildiyi vurğulanırdı. Eyni zamanda Silahlı Qüvvələrin tibb xidmətilə Səhiyyə Nazirliyinin müəssisələri arasında sıx əməkdaşlığın yarandığı bildirilir, hər iki dövlət qurumunun iştirakı ilə birgə hərbi tibbi təlim toplanışının keçirilməsi Azərbaycanın tibb tarixində önəmli hadisə kimi dəyərləndirilirdi.

- Bu təlim toplanışı Müdafiə nazirinin təsdiq etdiyi plana daxil olan bir tədbirdir, - Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsi rəisinin elmi işlər üzrə müavini, tibb xidməti polkovnik-leytenantı Pərviz Məmmədov bildirdi. - Bu qəbildən olan tədbirləri tez-tez keçiririk. Belə tədbirlərdə hərbi həkimlərimizin elmi araşdırmalarına diqqət yetirməklə təbabətin ən son nailiyyətləri əsasında qabaqcıl təcrübənin öyrənilməsinə çalışırıq. Şübhəsiz, bu tədbirlər hərbi və mülki tibb müəssisələrinin hərbi münaqişə zamanı fəaliyyətlərinin düzgün əlaqələndirilməsində yardımçı olacaq.

Təlim toplanışında maraqlı və aktuallığı ilə seçilən məruzələr dinlənildi. "Hərbi travmalar zamanı cərrahi yardımın təşkili, odlu silah yaralanmalarının müalicəvi xüsusiyyətləri. Hərbi travmaların müalicəsində müasir yanaşmalar" mövzusunda Silahlı Qüvvələrin baş cərrahı tibb xidməti polkovniki, tibb elmləri doktoru Famil Babayev çıxış etdi.

- Ümumiyyətlə, bu, Silahlı Qüvvələrdə hərbi səfərbərlik istiqamətində ilk dəfə keçirilən regional hərbi tibbi təlim toplanışıdır, - deyə Famil Babayev bizimlə söhbətində bildirdi. - Səhiyyə Nazirliyinin müalicə müəssisələrində çalışan cərrahi profilli həkimlər, cərrahlar, anestezioloqlar və cərrahi briqadaların əməliyyat tibb bacılarının hərbi yönümdən hazırlıq keçməsi üçün bu tədbir çox önəmlidir. Bu təlim-toplanışın keçirilməsinin məramı əslində mülki səhiyyə ocaqlarında çalışan mütəxəssisləri ekstremal şəraitdə tibbi fəaliyyətin iş prinsipləri və xüsusiyyətlərilə tanış etməkdən, onlara hərbi şəraitdə işləmək xüsusiyyətlərinin aşılanmasından ibarətdir. Məlum olduğu kimi, hərb dövründə tibbi fəaliyyət dinc dövrdəkindən mürəkkəbliyilə xeyli fərqlənir. Yəni, hərbi travmalarda istər yanaşma, istər yaralıların müalicəsi dinc dövrdəkindən ciddi surətdə seçilir. Onların müalicə prinsiplərini, protokollarını mülki tibb mütəxəssislərinin diqqətinə çatdırmaq, xüsusi olaraq hərbi cərrahiyyə üçün xas olan çeşidləmə anlayışını onlara aşılamaq olduqca gərəklidir. Ümumiyyətlə, operativ vəziyyətin tez-tez dəyişdiyi bir halda yaralılara cərrahi yardımın göstərilməsinin təşkili məsələlərini diqqətə çatdırmağı qarşıya məqsəd qoymuşuq.

Tibb xidməti polkovnikinin sözlərinə görə, Səhiyyə Nazirliyinin kontingentilə belə toplanışlar indiyədək keçirilib. Hətta Fövqəladə Hallar Nazirliyinin tibb xidmətilə birgə tədbirlər təşkil etmişik. Bunlar əsasən paytaxtda, Sumqayıt şəhərində baş tutub. Bugünkü tədbirin özəlliyi ondan ibarətdir ki, ilk dəfə regional səviyyədə toplanırıq. Bu bir başlanğıcdır. Bunun ardınca digər bölgələrdə də belə təlim toplanışları təşkil olunacaq.

Cərrahi briqada deyilən qrupa həm cərrah, həm anestezioloq, həm də əməliyyat tibb bacısı daxildir. Onlar eyni komandanın üzvləridir, onların kollektiv şəkildə çalışması olduqca önəmlidir. Bu səbəbdən də cərrahi əməliyyat tibb bacıları da bugünkü təlim toplanışına cəlb olunublar. Ayrıca bir qrup təşkil edilib və tibb bacıları ilə treninq keçirilib.

"Hərbi travmalar zamanı anestezioloji-reanimasyon yardımın təşkili və göstərilməsi xüsusiyyətləri" mövzusunda isə Silahlı Qüvvələrin baş reanimatoloqu, tibb xidməti polkovniki Vüqar Abdullayevin məruzəsi dinlənildi.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırıldı, mövzular ətrafında diskussiya aparıldı.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**



# "Vətəni qoruyuruq!.."

***Xalq şairi Bəxtiyar Vahabzadənin bir beytini xatırlayıram: Vətən gözdü - biz kirpik, Gözümüzün keşiyini çəkirik. Bu kəlmələr səngərdə dayanan mətin gənclərimiz üçün də, səngər nə olduğunu, torpaq, Vətən sevgisini duyanlar üçün də çox səmimidir. Onlar inanırlar ki, həqiqətən Vətənin keşiyində "kirpiklər gözü qoruduğu" kimi dayanmaq lazımdır.***

Hərbi xidmətin özünəməxsus çətinlikləri olsa da, bu çətinliklər dözümlüləri, vətənsevərləri sıxmır, onlar Vətən naminə bütün çətinliklərin öhdəsindən gəlməyi bacarırlar. Gizir Rəhman Bağırov kimi.

Gizir Rəhman Bağırov Qazaxda anadan olub. Əsgər kimi hərbi borcunu Naxçıvanda yerinə yetirib. Elə orada da ömrünü Vətənə həsr eləməyi qərara alıb. Komandirləri onun bu müqəddəs, bu duyğusal arzusunun gerçəkləşməsinə imkan yaradıb.

Rəhman Bağırov kimi oğulların Vətən sevgisinin işığı gözçəkəndir...

2009-cu ildən gizir rütbəsi ilə xidmətdədir. Əsgər olaraq öyrəndiklərini gizir olaraq əsgərlərə öyrədir. O da başqaları kimi bir amalın əsgəridir: qoruduqları əraziyə düşmən ayağı dəyməməlidir!..

Gizir Rəhman Bağırov söhbət zamanı deyir:

- Səngər əsgərdən xüsusi diqqət tələb edir. Diqqətli, dözümlü əsgərlər verilən tapşırığı lazımi səviyyədə yerinə yetirirlər. Bizim hərbi hissədə hər bir əsgər ayıq-sayıqlıqla xidmət edir, vəzifə borcunun öhdəsindən bacarıqla gəlir. Elə biz də əsgərik. Vətənin əsgəri. Vətəni qoruyuruq!..

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu"**

# "Ordumuzun tibb təminatı yüksək səviyyədədir"

***Səhər işə gələndə redaksiya rəhbərliyindən hospitallardan birinə ezam olunmağım barədə tapşırıq aldım. Ezamiyyətin məqsədi şəfa ocağında çalışan təcrübəli həkim və tibb bacıları barədə yazı hazırlamaq idi.***



Artıq yayın qızmar günləri yavaş-yavaş arxada qalır. Mülayim keçən sentyabr havası payızın gəlişindən xəbər verir. Xeyli yol gəlib hospitala çatıram. Şəfa ocağının sağ və sol tərəfində səliqə ilə əkilmiş ağaclar yaz təravətli görünüşünü hələ də itirməmişdi, yamyaşıl idi. Ərazidə salınmış göz oxşayan yaşıllığa, səliqə-sahmana nəzər saldıqca, sanki insanın daxilinə sonsuz bir rahatlıq, sakitlik çökür. Təbiətin bu ecazkar mənzərəsi insana zövq verir, xoş ovqat yaradır.

Hospitalın həyətində təbiət mənzərələrini müşahidə etdiyim zaman artıq hərbi hissə növbətçisi nizamnamənin şərtlərinə uyğun olaraq komandirə məruzə etmişdi. Tibb xidməti polkovnik-leytenantı Sadıq Nurullayev hospitalın təyinatı, bölmələri barədə qısa məlumat verdi. Tibb heyətinin peşəkarlığından və uzun illər hospitalda çalışan təcrübəli kadrlardan danışdı:

- Bölmələrin öz təyinatı üzrə səmərəli fəaliyyət göstərməsi buradakı tibb heyətinin təcrübəsinin nəticəsidir. Hər kəs öz işinin öhdəsindən bacarıqla gəlir. Zərurət yarandıqda, xəstələrin operativ şəkildə təxliyyəsi, onlara ilk tibbi yardımın göstərilməsi və s. hospitalın xüsusi iş rejimində olan tədbirlərdir.



Müsahibimlə söhbətimi intensiv müalicə kabinəsində davam etdiririk. Yenicə daxil olan xəstənin müayinəsini aparan həkimə yaxınlaşıb söhbət aparmaq istədiyimi bildirdim. O, xəstənin palatada yerləşdirilməsini təmin etdikdən sonra söhbətə başladıq. Öyrəndim ki, tibb xidməti mayoru Elçin Əhmədov Qarabağ müharibəsi veteranıdır. Ordu sıralarına 1992-ci ildə daxil olub. 1992-93-cü illərdə Ağdam, Füzuli, Tərtər istiqamətlərində gedən ağır döyüşlərdə iştirak edib. O illəri, demək olar ki, tez-tez xatırlayır.

- O ağır müharibə illərində ölkəmizdə hərbi tibb məktəbi fəaliyyət göstərirdi, - deyir Elçin həkim. - Həmin məktəbdə cəbhədən gələn yaralıların müalicəsi ilə yanaşı, yenicə yaradılan ordunun tibb heyəti üçün lazımlı kadrların - feldşerlərin hazırlanmasında əməyimi əsirgəməmişəm. Qeyd etməliyəm ki, ordumuzun hərbi tibb tarixi Qarabağ müharibəsinin od-alovunda yaradılıb. Cəbhə xəttində atəşkəs elan olunandan sonra hazırda çalışdığım hospitalda xidmətimi davam etdirməyə başladım. Bu gün ordumuzun tibb təminatı yüksək səviyyədədir. Klinika və hospitallar müasir tibbi avadanlıqlarla təchiz olunub. Bu yaxınlarda müasir texnika və maşınlar hospitalımızın sərəncamına verilib. Bir həkim-mütəxəssis kimi hərbi hissə və birləşmələrdə fəaliyyət göstərən tibb heyətinə kömək məqsədi ilə bölgələrə ezam olunuram.

Orduda xidmət etdiyi illər ərzində E.Əhmədov Silahlı Qüvvələrimizin yubiley, 2-ci və 3-cü dərəcəli "Qüsursuz xidmətlərə görə" medallarına, fəxri fərman, təşəkkür və diplomlara layiq görülüb.

Söhbətimizin sonunda Elçin həkim dedi ki, ən böyük arzum gözəl Qarabağın, Şuşanın, eləcə də başqa rayon və şəhərlərimizin erməni işğalçılarından azad olunacağı günü - Qələbə gününü görməkdir. Əgər Ali Baş Komandan cənab İlham Əliyev döyüş əmri verərsə, təcrübəli tibb işçisi kimi ön xətdə xidmət etməyə hazıram.

Biz də bu arzulara qoşuluruq, Elçin həkim. Mütləq o günü görəcəyik!

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Əsrimizin sonunda Yer kürəsi əhalisinin sayı 12,3 milyard nəfərə çatacaq



Alimlər planetdə demoqrafik vəziyyət barədə yeni proqnoz veriblər. "Science" jurnalı yazır: BMT və Vaşinqton Universiteti mütəxəssislərinin yeni tədqiqatına görə, 2100-cü ilədək Yer kürəsi əhalisinin sayı 80 faiz ehtimalla 9,6-12,3 milyard nəfərə çatacaq.

Demoqraflar güman edirlər ki, əhalinin artımı əsasən, Afrika ölkələri sayəsində olacaq. Böyük Səhradan cənubda yerləşən bu ölkələrdə əsrin sonunadək əhalinin sayının dörd dəfə artaraq təqribən 4 milyard nəfərə çatacağı gözlənilir. Alimlər hesab edirlər ki, 2050-ci ildə həmin ölkələrdə 5 milyard adam yaşayacaq, lakin sonrakı dövrdə demoqrafik tənəzzül gözlənilir. Avropa və Şimali Amerika isə əhalinin artımına çox kömək göstərməyəcək.

### Ermənistanda hərbçilərlə dolu maşın dərəyə yuvarlanıb, ölən və yaralananlar var



Sentyabrın 19-da saat 17:00 radələrində Ermənistanın Tavuş vilayətinin Artsvaberd kəndi ərazisində hərbçiləri daşıyan Ermənistan Müdafiə Nazirliyinə məxsus "QAZ-66" markalı maşın yoldan çıxaraq dərəyə yuvarlanıb.

"NEWS.am" saytının verdiyi xəbərə görə, avtomobili idarə edən kapitan Pavlik Manukyan baş nahiyyəsindən aldığı ağır xəsarət nəticəsində hadisə yerində ölüb.

Qeyd edək ki, hadisə nəticəsində maşında olan 2 zabit, 4 çavuş və 6 əsgər müxtəlif xəsarətlərlə Berd şəhər hospitalına yerləşdirilib.

İnsidentlə əlaqədar Ermənistan İstintaq Komitəsində araşdırma aparılır.

### Şarl Aznavur: "Ermənistanda daxili soyqırımı aparılır"



"Hazırda mənim ölkəmdə daxili soyqırımı baş verir və mən bunu siyasi cəhətdən qəbuledilməz sayıram". Bunu erməni mənşəli Fransa müğənnisi Şarl Aznavur Moskvada verdiyi konsertində deyib.

"Ermənistan hökuməti ölkəsinə nəfəs almağa imkan vermədən onu gənclikdən məhrum edir - gənclər ölkəni tərk edirlər. Bu mənada problem artıq siyasi yox, ümumbəşəri olub. Bu problemi təcili həll etmək lazımdır", - deyə Ş.Aznavur bildirib.

### Fransa Şimali İraqda terrorçuların mövqelərinə ilk hava zərbələri endirib



Fransanın Hərbi Hava Qüvvələri cümə günü səhər özünü "İslam dövləti" adlandıran terrorçu qruplaşmanın mövqelərinə ilk zərbələr endirib.

Fransa Prezidenti Fransua Ollandın bu haqda bəyanatını Yelisey sarayının mətbuat xidməti yayıb. "Bizim Rafale təyyarələri "İslam dövləti" təşkilatından olan terrorçuların İraqın şimal-şərqində yerləşən logistik anbarına ilk zərbə endirib. Hədəf vurulub və tam məhv edilib" - Fransa liderinin bəyanatında bildirilir. Olland əlavə edib ki, Fransa Hərbi Hava Qüvvələri yaxın günlərdə münaqişə zonasında hərbi uçuşları davam etdirəcək.

### Tehran nüvə silahı istehsal etməyəcəyinə dair zəmanət verməyə hazırdır



Rəsmi Tehran heç vaxt nüvə silahı istehsal etməyəcəyinə dair zəmanət verməyə hazırdır. Bu sözləri Nyu-Yorkda BMT-nin sessiyasında iştirak edən İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Zərif jurnalistə müsahibəsində deyib.

M.Zərif bildirib ki, İranın nüvə proqramının birdəfəlik bağlanmasından söhbət gedə bilməz. Çünki bu proqram elmin inkişafına xidmət edir. Elmin və yeni texnologiyaların inkişafının qarşısını almaq isə mümkünsüzdür.

İranlı nazir bildirib ki, Qərb dövlətləri ilə razılaşmanın ən yaxşı yolu İranın nüvə silahı hazırlamayacağı haqqında zəmanət verməsidir. İranın nüvə proqramı şəffafdır və dinc məqsədlər üçün nəzərdə tutulub.

### Berlin ilə Avropa İttifaqı arasında mübahisə kəskinləşir



Almaniyada ixracın idxaldan xeyli çox olması bütün Avropa üçün təhlükəlidir. Brüssel Berlinə ölkə daxilində tələbatı fəallaşdırmaq və ortamüddətli perspektivdə iqtisadi artımı möhkəmləndirmək çağırışı ilə müraciət edib.

Almaniya mətbuatının məlumatında deyilir ki, Brüssel Almaniyanın ixrac modelini şübhə altına salmır. Almaniya ixracda uğur qazandığına görə heç kəs onu tənqid etmək istəmir, lakin Avropa Komissiyasında istəyirlər ki, Aİ-nin üzvü olan hər bir ölkə malların istehsalında və onların ixracatında müvəffəqiyyət qazana bilsin. Berlin isə, öz növbəsində hesab edir ki, ölkəsində ixracın idxaldan xeyli çox olması Avropa iqtisadiyyatı üçün problem yaratmır.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

